*триваемся предвзятость телеканалов США и Великобритании.*

*Ключевые слова: Карабах, информация, «CNN International», «Fox News», «BBC news», «Sky News»*

## AZƏRBAYCAN TÜRKİYƏ BİRLİYİ

**Aytəkin Zeynalova**

*"Jurnalistika" Elmi Tədqiqat Laboratoriyası müdiri,*
*Siyasi elmlər üzrə fəlsəfə doktoru, Dosent,*
*Bakı Dövlət Üniversitesi, Jurnalistika Fakültesi,*
*Beynəlxalq jurnalistika və informasiya siyasəti kafedrası*
*phd.aytekinzeynalova@gmail.com*
*ORCID: 0000-0002-9737-1072*

**Özet**

*Soykökü, tarixi, milli adət-ənənələri oxşar olan Azərbaycan -Türkiyə birliyinin son illərdə daha da möhkəmlənən tərəfdaşlığının dünya siyasətinə təsiri bütün istiqamətlərdə hiss olunur. Türk dövlətləri arasında həmrəyliyin möhkəmlənməsinə töhfə verən bu əməkdaşlıq Qərbin formalaşdırdığı islamofobiyanın qarşısının alınmasında yenilməz qüvvədir. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının, Türkdilli Ölkələrin Parlament Assambleyasının (Türk PA) yaradılması ilə müsəlmanlar, İslam dini haqqında aparılan təxribat kampaniyasının, formalaşdırılan zərərli yanaşmaların qarşısı türk xalqlarının birliyi nəticəsində alınır. Beynəlxalq tədbirlərdə, hər iki dövləti təmsil edən diaspor təşkilatlarının eyni mövqedən çıxış etməsi bu birliyin təzahürüdür. Reallaşan qlobal enerji, nəqliyyat layihələrinin istismarı nəticəsində hər iki dövlətin iqtisadiyyatının inkişafına Türkiyə-Azərbaycan qardaşlığı baxımından yanaşılması əməkdaşlığı daha da möhkəmləndirir. Humanitar sahədə əməkdaşlığın daha bir nümunəsi olan Azərbaycan –Türkiyə Media Platforması iki qardaş dövlət arasında mənəvi körpü, informasiya mənbəyi olmaqla "Bir millət, iki dövlət!" aforizminin reallığıdır.*

*2021-ci il noyabr ayında İstanbulda Türkiyəni, Azərbaycanı, Qazaxıstanı, Özbəkistanı, müşahidəçi ölkə kimi Macarıstanı, Qırğızıstanı, Şimali Kipr Türk Cümhuriyyətini təmsil edən media mənsublarının, tanınmış elm adamlarının iştirakı ilə keçirilən Türk Şurasının mediaforumunda əlaqələrin daha da genişlənməsi üçün prioritetlər geniş müzakirə olunub. İkinci Qarabağ müharibəsində işğalçı Ermənistan üzərində Azərbaycanın tarixi Zəfəri ilə bağlı çıxışlar daha çox diqqəti cəlb edib. 44 gün davam edən Vətən müharibəsində xüsusilə qardaş Türkiyə başda olmaqla türkdilli dövlətlərin daim Azərbaycanın yanında olması mənəvi, siyasi dəstək kmi dəyərləndirilib. Vurğulanıb ki, Qarabağ müharibəsinin davam etdiyi o ağır günlərdə Türkiyə mediasında çalışan jurnalistlər azərbaycanlı həmkarları ilə çiyin-çiyinə fəaliyyət göstərmiş, əsl həqiqətin dünya ictimaiyyətinə çatdırılması üçün bütün imkanlarını səfərbər etmişlər.*

***Açar sözlər:*** *Media, Zəfər, Media Platforması*

**Soykökü, tarixi, milli adət-ənənələri oxşar olan Azərbaycan -Türkiyə birliyinin son illərdə daha da möhkəmlənən tərəfdaşlığının dünya siyasətinə təsiri bütün istiqamətlərdə hiss olunur. Türk dövlətləri arasında həmrəyliyin möhkəmlənməsinə töhfə verən bu əməkdaşlıq Qərbin formalaşdırdığı islamofobiyanın qarşısının alınmasında yenilməz qüvvədir. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının, Türkdilli Ölkələrin Parlament Assambleyasının (Türk PA) yaradılması ilə müsəlmanlar, İslam dini haqqında aparılan təxribat kampaniyasının, formalaşdırılan zərərli yanaşmaların qarşısı türk xalqlarının birliyi nəticəsində alınır. Beynəlxalq tədbirlərdə, hər iki dövləti təmsil edən diaspor təşkilatlarının eyni mövqedən çıxış etməsi bu birliyin təzahürüdür. Reallaşan qlobal enerji, nəqliyyat layihələrinin istismarı nəticəsində hər iki dövlətin iqtisadiyyatının inkişafına Türkiyə-Azərbaycan qardaşlığı baxımından yanaşılması əməkdaşlığı daha da möhkəmləndirir. Humanitar sahədə əməkdaşlığın daha bir nümunəsi olan Azərbaycan –Türkiyə Media Platforması iki qardaş dövlət arasında mənəvi körpü, informasiya mənbəyi olmaqla "Bir millət, iki dövlət!" aforizminin reallığıdır.**





**Türk Şurası mediaforumu çərçivəsində keçirilən "Birlikdən doğan Zəfər: Qarabağ" mövzusundakı paneldə 44 günlük Vətən müharibəsi zamanı Azərbaycan ilə Türkiyə arasındakı güclü həmrəyliyin bütün türk dünyasına təsiri, bütün sahələr üzrə əlaqələrin daha da inkişaf etdirilməsi istiqamətində atılacaq addımlar müzakirə olunub. Azərbaycan və Türkiyə prezidentlərinin rəhbərliyi altında iki qardaş ölkə arasındaki sıx əlaqələrin, münasibətlərin bütün qurumların qarşılıqlı fəaliyyətində özünü göstərməsi birlik və həmrəylik nümunəsi kimi dəyərləndirilib.**

**Türk dünyasının öndərləri olan Heydər Əliyevin və Mustafa Kamal Atatürkün təməlini qoyduqları qardaşlıq münasibətlərinin Azərbaycan və Türkiyə prezidentləri İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan tərəfindən özünü həyatda təsdiqləyən siyasi kurs kimi davam etdirilməsi türkdilli dövlətlərin həmrəyliyini də möhkəmləndirir.**

**22-24.10..2021-ci il tarixində "Bir millət, iki dövlət" şüarı ilə keçirilən iclasda iki qardaş ölkənin kommunikasiya sahəsində əlaqələrinin yaxşılaşdırılması məqsədilə ənənəvi və rəqəmsal media, strateji kommunikasiya, eləcə də ictimai diplomatiya sahələrində əməkdaşlıq və koordinasiyanın gücləndirilməsi, dezinformasiyaya qarşı birgə mübarizə kimi məsələlər müzakirə olunub. Foruma Türk Şurasına üzv ölkələr - Türkiyə, Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Özbəkistandan, habelə müşahidəçi ölkələr Macarıstan, Türkmənistan və Şimali Kipr Türk Cümhuriyyətindən olan media nümayəndələri, akademiklər, dövlət qurumlarının və özəl təşkilatların yüksək vəzifəli şəxsləri, sosial media təmsilçiləri, universitet tələbələri olmaqla 500-dən çox iştirakçı qatılıb. Forumun ilk günü "Ortaq mədəni gələcək: Türk dünyasında serial-film sektoru", "Türk dünyasının 30-cu ildönümü xüsusi iclası: Köklü keçmiş, güclü gələcək" və "Keçmişdən gələcəyə türk dünyası birliyi" mövzularında panel iclasları keçirilib.**

**Türkiyə-Azərbaycan Ortaq Media Platformasının strukturu ilə bağlı məsələlərin də müzakirə edildiyi tədbirdə "ictimai diplomatiya", "beynəlxalq**

media", "strateji kommunikasiya", "təhsil", "qanunvericilik və tənzimləmə", "rəqəmsallaşma və beynəlmiləlləşmə" komitələrinin yaradılması ilə bağlı qərar qəbul edilib.

Forumda "Birlikdən doğan Zəfər: Qarabağ" mövzulu paneldə Qarabağ Zəfəri ilə nəticələnən 44 günlük Vətən müharibəsi zamanı Azərbaycan ilə Türkiyə arasındakı güclü həmrəyliyin bütün türk dünyası ölkələri arasında da nümayiş olunmasının vacibliyi vurğulanaraq, bu ölkələr arasında bütün sahələr üzrə əlaqələrin daha da inkişaf etdirilməsi istiqamətində atılacaq addımlar müzakirə olundu. Hikmət Hacıyev qeyd etdi ki, Vətən müharibəsində əldə edilən Zəfərdən sonra hazırda Azərbaycan Qarabağı yenidən qurmaq və türk-islam sivilizasiyasının mərkəzi bölgəsi kimi Qarabağın tarixi nüfuzunu özünə qaytarmaq əzmindədir. Və bu şərəfli yolda qardaş türk ölkələri də bu prosesdə Azərbaycanın yanında olacaq.

M.Ələsgərlinin Bakı-xəbər saytına verdiyi müsahibəsində "44 günlük Vətən müharibəsi zamanı Azərbaycanla Türkiyə mediasının müştərək hərəkət etmələri güclü həmrəyliyin nümayişi idi və yüksək nəticələr verdi. İndi bu əməkdaşlıq digər türkdilli dövlətlərə nümunə kimi göstəriləcək və daha da inkişaf etdirilməsi üçün müzakirələr aparılacaq. "Təsadüfi deyil ki, forumun panellərindən biri "Birlikdən doğan Zəfər: Qarabağ" mövzusuna həsr edilib. II Qarabağ savaşında da Azərbaycan -Türkiyə mediasının müştərək hərəkəti və əldə etdiyi nəticələr gələcəkdə digər türkdilli dövlətlərin media qurumlarının əməkdaşlığı üçün yaxşı nümunə olacaq"-deyə vurğuladı. (İradə, 2021)

Tədbirdə Türkiyə-Azərbaycan Ortaq Media Platformasının yaradılması yüksək dəyərləndirilərək, türkdilli ölkələr arasında informasiya mübadiləsinin daha da intensivləşdirilməsi istiqamətində təkliflər olunub. Ötən il prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə imzalanan "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında media sahəsində strateji əməkdaşlıq haqqında Anlaşma Memorandumu" ilə rəsmiləşdirilən Ortaq Media Platforması iki ölkə arasında son illər daha da inkişaf edən əlaqələrin media və rabitə sahələrində də tətbiqində çox dəyərli addım kimi qiymətləndirilir. Çıxışlarda deyildiyi kimi, dünya siyasətinin güclərin diqtəsi ilə idarə olunduğu bir zamanda media, kommunikasiya, xalq diplomatiyası, həmçinin dezinformasiya ilə mübarizənin türkdilli xalqların maraqları naminə işıqlandırılması Ortaq Media Platformasının əsas prinsiplərini təşkil edir. Eyni zamanda, Azərbaycan və Türkiyə mediasının qarşılıqlı, əlaqəli şəkildə fəaliyyəti iki qardaş ölkənin birgə fəaliyyətinin perspektivlərinin təbliği baxımından da əhəmiyyətlidir. (TRT,2021)

Türkiyə-Azərbaycan Media Platformasının yaradılması olduqca strateji əhəmiyyətli bir qərardır və hər iki dövlətin, əslində isə bir millətin maraqları baxımından olduqca uzunmüddətli perspektivlərə hesablanıb. Bu platforma çərçivəsində çox geniş fikir, təcrübə mübadiləsi aparmaq, mümkündür. Həm də, Türkiyə və Azərbaycanın öndə gələn media qurumları arasında əlaqələrin inkişafı ölkələrimizdə baş verən proseslərə daha operativ reaksiya vermək, cəmiyyətimizi dolğun məlumatlandırmaq baxımından da əhəmiyyətlidir. Digər





tərəfdən, beynəlxalq münasibətlərdə və ikitərəfli münasibətlərdə medianın rolu olduqca vacibdir, çünki, media ictimai rəyə birbaşa təsir edən, onu formalaşdıran və istiqamətləndirən rola sahibdir.

Tədbirdə Azərbaycan Prezidentinin köməkçisi, Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev keçirilən forumun Türk Şurasına üzv ölkələrin bir çox sahədə olduğu kimi, media sahəsində də həmrəyliyinə verəcəyi böyük töhfəni xüsusi qeyd edib.

44- günlük Vətən müharibəsi dövründə qardaş Türkiyənin, eləcə də bir sıra türkdilli dövlətlərin daima Azərbaycanın yanında olduğunu vurğulayan Prezidentin köməkçisi ilk növbədə, başda Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan olmaqla, qardaş Türkiyənin Azərbaycanın yanında olmasını, mənəvi, siyasi, diplomatik dəstək verməsini xüsusilə qeyd edib: "Həmin dövrdə Türkiyənin nəbzi, ürəyi Azərbaycanla döyünürdü və nəhayət, Azərbaycan xalqının bu həsrətinə son qoyuldu. Eyni zamanda, Türk Şurasına üzv ölkələr və başda Şuranın baş katibi olmaqla 44 günlük Vətən müharibəsi dövründə Azərbaycan xalqına öz dəstəklərini əsirgəmədilər. Vətən müharibəsi dövründə iki qardaş ölkənin KİV-ləri də çiyin-çiyinə mübarizə apardılar". (Report, 2021)

Azərbaycanın Zəfəri ilə başa çatan Vətən müharibəsi zamanı iki qardaş ölkə arasında kommunikasiya sahəsində formalaşan əməkdaşlıq, hər iki dövlət başçısının birgə səyi ilə ən yüksək səviyyəyə çatan Azərbaycan-Türkiyə münasibətlərinin media vasitəsi ilə dünya ictimaiyyətinə çatdırılması, sosial və beynəlxalq media platformalarında ölkəmizə qarşı aparılan dezinformasiya ilə mübarizədə qardaş ölkənin təcrübəsindən istifadənin müsbət nəticələri özünü doğrultdu.

İki qardaş ölkə KİV-lərinin birgə fəaliyyəti göstərdi ki, Türkiyə ilə Azərbaycan siyasi , iqtisadi, mədəni, hərbi sahədə olduğu kimi, kommunikasiya sahəsində də fərqli, daha nümunəvi münasibətlərə malik qüdrətli dövlətlərdir. Bu münasibətlərin qarşılıqlı, daha geniş miqyasda, sistemli şəkildə davamı Ortaq Media Platformasının əsas prioritetlərindəndir. (İsmayılqızı, 2021)

Ekspertlərin rəylərində də bu fikirlər öz əsasını tapır ki, Türkiyə-Azərbaycan Media Platformasının yaradılması olduqca strateji əhəmiyyətli bir qərardır və hər iki dövlətin, əslində isə bir millətin maraqları baxımından olduqca uzunmüddətli perspektivlərə hesablanıb. Bu platforma çərçivəsində çox geniş fikir, təcrübə mübadiləsi aparmaq, mümkündür. Həm də, Türkiyə və Azərbaycanın öndə gələn media qurumları arasında əlaqələrin inkişafı ölkələrimizdə baş verən proseslərə daha operativ reaksiya vermək, cəmiyyətimizi dolğun məlumatlandırmaq baxımından da əhəmiyyətlidir. Digər tərəfdən, beynəlxalq münasibətlərdə və ikitərəfli münasibətlərdə medianın rolu olduqca vacibdir, çünki, media ictimai rəyə birbaşa təsir edən, onu formalaşdıran və istiqamətləndirən rola sahibdir.(Nigar, 2020)

Professor Qulu Məhərrəmlinin Sputnik.az saytına verdiyi müsahibədə qeyd edir ki, Türkiyədə çoxsaylı media mənbələri var ki, dünya mediası onlara istinad edir: "Azərbaycan həqiqətlərinin həmin mənbələr vasitəsilə yayımlanması bu baxımdan ciddi rola malikdir. Digər tərəfdən b" platforma vasitəsilə

qurulacaq əməkdaşlıq Azərbaycan mediasında keyfiyyətin bir qədər də yüksəlməsinə təkan verəcək. Peşəkarlığın artırılması baxımından bu əməkdaşlığın faydalı ola biləcəyini düşünürəm. Bu platformanın yaradılmasının strateji əhəmiyyətinin olması da qeyd edilməlidir. Həm Türkiyəyə, həm də Azərbaycana qarşı aparılan informasiya müharibəsində belə bir paltformanın qurulması onun strateji tərəfini bir daha göstərir". (Qulu, 2021)

Bu gün dünyaya nümunə olan Azərbaycan-Türkiyə dostluq-qardaşlığı bütün istiqamətlərdə əməkdaşlıqda özünü təsdiq edir. Azərbaycanın haqq işi uğrunda apardığı mübarizədə Ankara Bakıya dəstək ifadə edib, onu sona qədər müdafiə etdiyi kimi, Bakı da öz növbəsində Ankaranın bir sıra prinsipial məsələlərdə bir nömrəli müdafiəçisi, dəstəkvericisidir. Tarixin müxtəlif dövrlərində və günümüzdə də eyni tendensiya davam edir. Ən son Tovuz istiqamətində gedən döyüşlərdə Türkiyənin Azərbaycana yönəlik qardaş dəstəyi bu dostluq-qardaşlığın, əməkdaşlığın ən bariz nümunəsidir. Azərbaycan da öz növbəsində Türkiyəni istənilən prinsipial məsələlərdə dəstəkləyir və bununla bağlı birbaşa Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən ortaya siyasi iradə qoyulur. Prezident İlham Əliyev bu günlərdə Yunanıstanın Azərbaycanda yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Nikolas Piperiqkosu qəbul edərkən dövlət başçısı Yunanıstanın səfirinə açıq şəkildə və net olaraq bildirdi ki, biz heç bir tərəddüd etmədən Şərqi Aralıq dənizində baş verən son proseslərdə Türkiyəni dəstəkləyirik və bütün hallarda dəstəkləyəcəyik: "Biz eyni dəstəyi türk qardaşlarımızdan da görürük. Onlar Azərbaycanı bütün məsələlərdə dəstəkləyirlər və biz onları bütün məsələlərdə dəstəkləyirik, o cümlədən Şərqi Aralıq dənizində kəşfiyyat məsələsi ilə bağlı. Mən istəyirəm ki, siz bizim mövqeyimizi biləsiniz. Bu mövqe mənim göstərişimlə artıq Azərbaycan hökuməti tərəfindən rəsmi açıqlanmışdır. Sizə bir daha deyə bilərəm ki, Türkiyə bizim üçün təkcə dost yox, qardaş ölkədir və türklər bizim qardaşlarımızdır. Beləliklə, bütün məsələlərdə biz onların yanında olacağıq"

Etiraf etmək lazımdır ki, Türkiyə və Azərbaycan əlaqələrinin dünyada analoqu olmayan müttəfiqlik səviyyəsinə yüksəlməsi tarixi təməllərə söykənir. Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" kəlamı, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin "Bir millət – iki dövlət" ifadəsi müasir dövrdə Azərbaycan-Türkiyə münasibətlərinin məzmununu və yönünü aydın göstərir. (TRT,2021)

Azərbaycan-Türkiyə əlaqələrinin, hərbi, müdafiə sənayesi, siyasi, iqtisadi və digər bütün sahələr üzrə dinamik artımda davam etməsi böyük bir coğrafi məkanda iqtisadi yüksəlişə təkan verib. Bütün bu nailiyyətlərin əldə olunmasında Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın siyasi iradələri, dövlət başçılarımızın qardaşlıq münasibəti tarixi rol oynayır. (Nigar, 2020)

## Ədəbiyyat:


1. İlham Əliyev, 2021, https://president.az/articles/50666







2. https://sputnik.az/20210202/-Azrbaycan-Trkiy-media-platformasnn-vd-etdi-yi-perspektivlr-426121939.html
3. https://www.yeniazerbaycan.com/Analitik_e61939_az.html
4. Aysel Aslan 2020, https://m.modern.az/az/news/255049/azerbaycan-turkiye-media-platformunun-perspektivleri-ortaq-dil-yeni-uzvler-koordinasiya-merkezi
5. 2021-ci il, https://www.trt.net.tr/azerbaycan/aktual/2021/10/23/istanbulda-turkiy-az-rbaycan-ortaq-media-platformasinin-ilk-iclasi-kecirilib-1723922
6. Nigar Orucova, 2020, https://ikisahil.az/post/turkiye-azerbaycan-media-platformasi-genish-fikir-tecrube-mubadilesi
7. Xuraman İsmayılqızı, 2021, http://ikisahil.com/post/258915-turk-shurasi-nin-menevi-silahi-azerbaycan-turkiye media-platformasi
8. Firuzə Vahid, Azərbaycan-Türkiyə Birgə Media Platforması yaradılıb,2021, https://apa.az/az/xeber/foreign-politics/Azrbaycan-Turkiy-Birg-Media-Platformasi-yaradilib-627218
9. Günel Məlikova, İstanbulda Türkiyə-Azərbaycan Ortaq Media Platformasının ilk iclası keçirilib, 2021, https://azertag.az/xeber/Istanbulda_Turkiye_Azerbaycan_Ortaq_Media_Platformasinin_ilk_iclasi_kechirilib_VIDEO-1907098
10. Ətayə Ələmdarqızı, Düşmənə qarşı informasiya cəbhəsi – Azərbaycan-Türkiyə ortaq media platforması, 2021, http://www.aztv.az/index.php/az/news/9372/dusmene-qarsi-informasiya-cebhesi-azerbaycan-turkiye-ortaq-media-platformasi
11. İradə Sarıyeva,"Türk ölkələrinin vahid media siyasəti konkret hədəflərini müəyyənləşdirdi.", 2021 https://www.baki-xeber.com/siyaset/129568.html
12. Nigar Orucova, "Türkiyə-Azərbaycan Media Platforması: Geniş fikir, təcrübə mübadiləsi", 2020 https://ikisahil.az/post/turkiye-azerbaycan-media-platformasi-genish-fikir-tecrube-mubadilesi
13. Qulu Məhərrəmli, "Azərbaycan-Türkiyə media platforması nə vəd edir?", 2021, https://sputnik.az/20210202/-Azrbaycan-Trkiy-media-platformasnn-vd-etdi-yi-perspektivlr-426121939.html


## Azerbaijan-Türkiye Union

**Aytekin Zeynalova**

### Abstract


*The impact of the Azerbaijan – Turkiye partnership, which has similar roots, history and national traditions, on world politics, which has been strengthened in recent years, is felt in all directions. This cooperation, which contributes to the strengthening of solidarity between the Turkish states, is an invincible force in preventing Islamophobia formed by the West. With the establishment of the Cooperation Council of Turkic Speaking States and the Parliamentary Assembly of Turkish Speaking States (Turkish PA), Muslims are prevented from the provocative campaign against Islam and the harmful attitudes formed as a result of the unity of the Turkic peoples.*

*At international events, the fact that the diaspora organizations representing both countries speak with one voice is a manifestation of this unity. As a result of the implementation of global energy and transport projects, the approach of the two countries to the*

*development of the economy from the point of view of Azerbaijan – Turkiye brotherhood further strengthens cooperation. Another example of cooperation in the humanitarian sphere, the Azerbaijan-Türkiye Media Platform is a spiritual bridge between the two brotherly states, a source of information "One nation, two states!" is the reality of the aphorism. Priorities for further expansion of relations were discussed at a media forum of the Turkish Council in Istanbul in November 2021 with the participation of media representatives and prominent scientists representing Türkiye, Azerbaijan, Kazakhstan, Uzbekistan, Hungary, Kyrgyzstan and the Turkish Republic of Northern Cyprus as observer countries. Speeches on Azerbaijan's historic victory over Armenia in the Second Karabakh War attracted more attention. During the 44-day war, the constant support of Turkic-speaking countries, especially brotherly Turkiye, to Azerbaijan was assessed as moral and political support. It was noted that in those difficult days of the Karabakh war, journalists working in the Turkish media worked side by side with their Azerbaijani colleagues and did their best to convey the truth to the world community.*

*Key Words: Media, Victory, Media Platform*

## Единство Азербайджана и Турции

**Айтекин Зейналова**

*Влияние укрепившегося в последние годы азербайджано-турецкого союза, имеющего сходное происхождение, историю и национальные традиции, на мировую политику ощущается по всем направлениям. Это сотрудничество, способствующее укреплению солидарности между тюркскими государствами, является непобедимой силой в предотвращении формируемой Западом исламофобии. С созданием Совета сотрудничества тюркоязычных государств, Парламентской ассамблеи тюркоязычных стран (Турецкого ПА) предотвращается провокационная кампания в отношении мусульман и религии ислам, формируются вредоносные подходы в результате единства тюркских народов. Проявлением этого единства является то, что диаспорские организации, представляющие обе страны, занимают одинаковую позицию на международной арене. В результате эксплуатации реализованных глобальных энергетических и транспортных проектов подход к развитию экономики обоих государств с точки зрения турецко-азербайджанского братства еще больше укрепляет сотрудничество. Азербайджано-турецкая медиа-платформа, являющаяся еще одним примером сотрудничества в гуманитарной сфере, является духовным мостом между двумя братскими государствами.*

*В ноябре 2021 года приоритеты дальнейшего расширения отношений широко обсуждались на медиафоруме Турецкого совета, состоявшемся в Стамбуле с участием представителей СМИ и известных ученых, представляющих Турцию, Азербайджан, Казахстан, Узбекистан, Венгрию, Кыргызстан и Турецкая республика Северного Кипра. Больше внимания привлекли речи об исторической победе Азербайджана над Арменией во второй карабахской войне. В ходе 44-дневной Отечественной войны постоянное присутствие тюркоязычных стран, особенно братской Турции, со стороны Азербайджана ценилось как моральная и политическая поддержка. Было подчеркнуто, что в трудные дни карабахской войны журналисты, работающие в турецких СМИ, работали бок о бок с азербайджанскими коллегами и делали все возможное, чтобы донести до мировой общественности настоящую правду.*





***Ключевые слова:*** *медиа, победа, медиа платформа*